**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 043/537

**Bakı şəhəri** "17" 07. **2026-cı il**

**Xaçmaz rayonu ərazisində yerləşən heyvan bazarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 15.10.2025-ci il tarixli 062/468 nömrəli "Ölkə ərazisinin xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması üçün epizootoloji nəzarətin gücləndirilməsi haqqında" qərarına əsasən, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının son dövrlərdə yaydığı rəsmi məlumatlar nəzərə alınmaqla, respublika ərazisində bioloji təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə heyvan bazarlarının fəaliyyəti 25.10.2025-ci il tarixindən etibarən müvəqqəti dayandırılmışdır.

Xaçmaz rayonu, Armudpadar kəndi ərazisində yerləşən "Şamil" MMC-yə məxsus olan heyvan bazarında Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın (bundan sonra – Qaydalar) tələblərinə uyğun olaraq tikinti və yenidənqurma işləri aparılmış, heyvan bazarında aparılmış yenidənqurma işlərinin qiymətləndirilməsi məqsədilə Agentliyin 12.12.2025-ci il tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən sözügedən heyvan bazarlarında yerində baxış və qiymətləndirmə həyata keçirilmişdir. Aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, həmin heyvan bazarında Qaydaların tələblərinin təmin edildiyi, bioloji təhlükəsizlik və dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradıldığı müəyyən edilmişdir.

Qeyd edilənlər və aparılmış qiymətləndirmənin nəticəsi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

**1.** Agentliyin 15.10.2025-ci il tarixli 062/468 nömrəli qərarı ilə respublika ərazisində tətbiq edilmiş müvəqqəti məhdudiyyətin tətbiqinə səbəb olan epizootoloji risklərin aradan qaldırılması məqsədilə görülmüş tədbirlər, habelə Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli, 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"na uyğun olaraq aparılmış yenidənqurma işlərinin Agentliyin 12.12.2025-ci il tarixli 3-2Ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən müsbət qiymətləndirildiyi nəzərə alınaraq, Xaçmaz rayonu, Armudpadar kəndi ərazisində yerləşən "Şamil" MMC-yə məxsus olan heyvan bazarına tətbiq edilmiş məhdudiyyət aradan qaldırılsın.

**2.** Sözügedən heyvan bazarının fəaliyyətinə 17.07.2026-cı il tarixindən etibarən icazə verilsin.

**3.** Agentliyin Quba–Xaçmaz regional bölməsi Xaçmaz rayonu, Armudpadar kəndi ərazisində yerləşən "Şamil" MMC-yə məxsus olan heyvan bazarında baytarlıq-sanitariya və bioloji təhlükəsizlik tədbirlərinə daimi dövlət baytarlıq nəzarətinin həyata keçirilməsini təmin etsin.

ƏSLİ İLƏ DÜZDÜR Abbasov T.K. 20.07.2026

**4.** Agentliyin Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən "Şamil" MMC-yə qeyd olunan heyvan bazarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması barədə məlumat verilsin.

**5.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin və görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirsin.

**6.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, eləcə də aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**7.** Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
20.07.2026